Ağaşahqızı,Y. Qanları ilə tarix yazan qəhrəmanlarımızı heç vaxt unutmayacağıq : İkinci Fəxri xiyabanda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb / Yaqut Ağaşahqızı // İki sahil. - 2021. - 29 sentyabr. - № 176. - S. 5.

Sentyabrın 28-də İkinci Fəxri xiyabanda Vətən müharibəsində iştirak edib şəhidlik zirvəsinə ucalan, Bakının Xətai, Abşeron rayonlarından, Naxçıvan şəhərindən və Göyçay rayonundan olan hərbçilərimiz-polkovnik-leytenant Sədi Musayevin, kapitanlar Ceyhun Həsənovun, Şahmar Quliyevin, Həmidağa Hüseynzadənin, baş leytenant Kamil Rəhimlinin, leytenantlar İmran Əliyevin, Elvin Şükürlünün, əsgərlər Cəbrayıl Dövlətzadənin, Nurlan Ağakişiyevin xatirəsi anılıb.

Anım mərasimində Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Abşeron rayonları icra hakimiyyətinin başçısı İradə Gülməmmədova, Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə, şəhidlərin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları, qazilər, məktəblilər və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün bərpa olunması, eləcə də tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub. Tədbir iştirakçıları şəhidlərin məzarı önünə əklillər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev Vətən müharibəsi şəhidlərinin hər birinin xatirəsinin əziz tutulduğunu və onların anım mərasimlərinin keçirilməsinin artıq bir ənənəyə çevrildiyini deyib: "Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində yağı düşmən üzərində Zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbədə şəhidlərimiz misilsiz şücaət göstərib. Şəhidlərimizin xatirəsi kiçikdən böyüyə hər bir Azərbaycan vətəndaşının ürəyində əbədi yaşayacaqdır. Vətən müharibəsinin qəhrəmanı olan şəhidlərimiz haqqında nə qədər yazılsa da, danışılsa da yenə azdır. Şəhidlərimizin göstərdikləri şücaət, keçdikləri döyüş yolu, onların yüksək iradə, mənəvi keyfiyyətləri gələcək nəsillər üçün nümunədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin."

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova qeyd edib ki, nə qədər ağrılı və çətin olsa da, 44 günlük Vətən müharibəsində bizə şanlı Qələbəni yaşadan şəhidlərimizdir: "Şəhidlərimiz öz qanları ilə Azərbaycan torpağında tarix yazdılar. Elə bir tarix yazdılar ki, heç zaman bizim yadımızdan çıxmayacaq. Şəhidlərimizin canı bahasına bu gün Qarabağda Azərbaycanın üçrəngli bayrağı dalğalanır. Əziz şəhid anaları, siz bizim qürur mənbəyimizsiniz. Sizə baxanda qürurlanırıq ki, bax belə mərd, igid Azərbaycan oğulları böyütmüsünüz. Bu gün həmin qəhrəman oğullarımız sayəsində bizim başımız ucadır. Şəhid analarının qarşısında baş əyir, əllərindən öpürəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin."

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə bildirib ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan Ordusunun əsgər və zabitləri 44 günlük Vətən müharibəsində böyük şücaət göstəriblər: "Şəhidlərimiz bizim qürurumuzu, Azərbaycanın əzəli və tarixi torpaqlarımızı, ədaləti özümüzə qaytarıblar. Vətən uğrunda canını fəda etməkdən müqəddəs heç nə ola bilməz. Vətən, xalq, torpaq yolunda canlarını fəda edən şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaqlar. Onların Vətən, torpaq, yurd sevgisi, şanlı döyüş yolu hər birimiz, xüsusilə də gənclərimiz üçün bir örnəkdir. Qələbəmizi təmin edən Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna sonsuz minnətdarlığımızı bildiririk."

V.Rəhimzadə qeyd edib ki, bu gün şəhidlərimizin əziz xatirəsinə sonsuz ehtiram hər birimizin vətəndaşlıq borcumuz, həyat amalımız olmalıdır. Hər bir Azərbaycan vətəndaşı bundan sonra da bu ideyaları, irsi qorumalı, ona sadiq qalmalı, gələcək nəsillərimizin bu ideyalar və prinsiplər əsasında böyümələrinə nail olmalıdır: "Şəhidlər hər birimizin qardaşı, əzizi, eyni zamanda, Azərbaycan xalqının baş tacıdır. Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirəm. Vətən sevgisini, xalqa məhəbbəti, yurda bağlılığı özündə ehtiva edən bu cür igid oğullar böyüdən valideynlərin də qarşısında baş əyirəm."

Milli Məclisin deputatı Elman Nəsirov vurğulayıb ki, öz qanları və canları ilə torpağa azadlıq toxumu səpən, Vətən uğrunda qəhrəmancasına mübarizə aparan, qəlbi Vətən eşqi ilə çırpınaraq şəhidlik məqamına yüksələn, şəhadəti ilə tarix yazan igidlərin xatirəsi xalqımız tərəfindən daim əziz tutulacaq: "44 günlük Vətən müharibəsi qəhrəman şəhid və qazilərimiz sayəsində bütün dünyaya haqq uğrunda mübarizədə qələbənin necə qazanılmasını göstərdi. Şəhidlərimiz bütöv Azərbaycanı gələcək nəslə əmanət qoyub getdilər. Onlar qanları və canları bahasına bu torpaqları düşməndən azad etdilər. "Dəmir yumruq" düşmənin başını əzdi, onlara Azərbaycan xalqının nəyə qadir olduğunu sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin."

Daha sonra tədbirdə şəhidlərin ailə üzvləri çıxış edərək onlarla bağlı xatirələrini bölüşüb, şərəfli həyat və döyüş yollarından söz açıblar. Çıxış edənlər şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.